## Leyla Bədirbəyli – 100

**Evlərində görüşdük onunla, pasportunu götürməliydim ki, təyyarəyə bilet alım. Çünki kinematoqrafçılarla birgə Rusiyanın Surqut şəhərinə Azərbaycan kino günlərində iştirak etməyə getməli idi. O vaxta qədər çox görüşlərimiz olmuşdu. Doğrudan da, o qədər səmimi söhbət edirdi ki, adam heç ayrılmaq istəmirdi. Təxminən 10 gündən sonra Leyla xanım Surqutdan xoş xatirələrlə qayıtdı. Deyirdi ki, görüşlərimiz çox gözəl keçdi, bircə havanın soyuqluğundan əziyyət çəkdik.**



# Gözəllik əfsanəsi

Leyla xanımın belə səfərləri çox olmuşdu və bu barədə dəfələrlə yazılıb. Amma onunla səfərdə olanlar deyirdilər ki, Leyla xanımla səfərə çıxmaq, sözün əsl mənasında, istirahətdir. Onun şirin söhbətləri uzun yolları həmişə qısa edərdi.

Leyla xanım canlı tarix idi. Ədəbiyyatdan, kinodan, teatrdan elə maraqlı söhbətlər edərdi ki, adam heyran qalardı. Bir dəfə söhbətlərimizin birində dediyi sözləri xatırlayıram: "Mənim həyatımı uzun bir yola bənzətsək, bu yol heç də həmişə hamar olmayıb. Sevinc dolu günlərim də olub, kədərli anlarım da. Bir sözlə, məşəqqətli və ilhamlı günlər yaşamışam. Amma heç vaxt sızıldayıb, "ah-uf" eləməmişəm". Bəli, ikili tale yaşamışdı Leyla xanım. Nə etmək olar, bu da bir ömrün naxışları idi.

Keçən il ölkə başçısı İlham Əliyev Azərbaycanın korifey sənətkarı, Xalq artisti Leyla Bədirbəylinin anadan olmasının 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Mədəniyyət Nazirliyinin şübhəsiz, sərəncamla bağlı tədbirlər planı var. Söz yox ki, bu yubiley tədbirləri ölkəmizin bütün regionlarında keçiriləcək.

Onun həyat yolu, demək olar ki, uşaqlıqdan sənətlə bağlı olmuşdur. Bakıda dünyaya göz açmışdı. Atası, Ağalar Bədirbəyov Şəmkir bəylərinin nəslindən, anası Bikə xanım da bəy qızı idi. Həmin illərdə Əli Bayramov adına klubdakı qadınlar dərnəyinə gedən Bikə xanım böyük qızı Leylanı da özü ilə aparırmış. Rəqsə böyük maraq göstərən gələcəyin məşhur aktrisasının istedadının üzə çıxdığı ilk sahə də məhz rəqs sənəti olub. Onun xüsusi rəqs bacarığını görən Azərbaycan Dövlət Filarmoniyasının rəhbərliyi balaca Leylanı burada işləməyə dəvət ediblər. O vaxt qızların bu sənəti seçməsi asan məsələ deyildi. Amma Leyla xanım 8 yaşında bu sənəti seçib və ömrünün axırına kimi də aktrisa kimi milli incəsənətimizin inkişafına xidmət edib.

Gənclik illərində filarmoniyada rəqqasə kimi çalışırdı. Onun Mahnı və Rəqs Ansamblının solisti kimi ifa etdiyi "Bir dənəsən", "Naz eləmə", "Tərəkəmə" rəqsləri milli rəqs sənətimizin qiymətli nümunələri idi. Filarmoniyada çalışdığı illərdə "Ayna" və "Bakının işıqları" filmlərində rol alan Leyla Bədirbəyli 21 yaşında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına dəvət edilib. Aktrisa 33 il bu sənət məbədinin səhnəsində bir-birindən fərqli qadın obrazları yaradıb.

Ümumiyyətlə, Azərbaycan teatrının inkişafında Leyla Bədirbəylinin xidmətləri həmişə xatırlanır. O, milli teatrımızın səhnəsində yaratdığı Sara ("Solğun çiçəklər"), Solmaz ("Od gəlini"), Şəlalə ("Yalan"), Dezdemona ("Otello"), Liza ("Canlı meyit"), Nərminə ("Göz həkimi") və s. bu kimi obrazları ilə mədəniyyət tariximizin qızıl səhifələrini yazıb. Leyla xanım tamaşalarda əsasən baş rolları oynayıb.

O, fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyət, məlahət və təbiilik sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı vermişdir.

Aktrisanın yaradıcılığında kinematoqrafiya məxsusi yer tutur və bu gün onun çəkildiyi filmlərə böyük maraq hələ də sengimir. Kinoda ilk böyük işi "Arşın mal alan" (1945) filmindəki Gülçöhrə rolu olub. Amma buna qədər də kinoda rolları olmuşdu. Belə ki, yuxarıda adlarını çəkdiyimiz filmlərlə yanaşı, 1937-ci ildə "Dəcəl dəstə" filmində pioner dəstə rəhbəri, 1941-ci ildə "Səbuhi" filmində Tubu, 1942-ci ildə "Sovqat" filmində Ayna rollarında oynamışdı.

"Arşın mal alan" müharibənin ağır illərində çəkilirdi. Rejissor Rza Təhmasib Gülçöhrə roluna Üzeyir Hacıbəylinin tövsiyəsindən sonra Leyla Bədirbəylini təsdiqləmişdi.

Deyilənə görə, filmə çəkilmək Leyla xanımın ürəyincə idi. Hətta, Üzeyir Hacıbəylinin yanına gələrək, bu filmə çəkilməyi arzuladığını və bunun üçün hər bir çətinliyə qatlaşmağa, gecə-gündüz işləməyə hazır olduğunu bildirmişdi. Beləliklə, Leyla xanım bu filmə çəkildi və arzuladığı şöhrətə çatdı. Bu rola görə SSRİ Dövlət mükafatına (o vaxt Stalin mükafatı adlanırdı) layiq görülmüşdü.

Leyla Bədirbəylinin Azərbaycan kinosunun inkişafındakı fədakar xidməti təkcə Gülçöhrə ilə bağlı deyil. 1940-cı illərdən etibarən ekranlarda məharətlə canlandırdığı və mənəvi-əxlaqi dəyərlərin təbliği, tamaşaçı zövqünün formalaşdırılması baxımından əhəmiyyət kəsb edən silsilə rollarla milli kinematoqrafiyanı daha da zənginləşdirmişdi.

İstedadlı aktrisa 50-yə yaxın filmdə, o cümlədən "Dəli Kür", "Sevil", "Onun böyük ürəyi", "Dərviş Parisi partladır" filmlərində yaddaqalan obrazlar yaradıb. "Dəli Kür" filmindəki Zərnigarı yəqin ki, xatırlayırsınız. Leyla xanım Zərnigarın daxili dünyasını necə də məharətlə aça bilmişdi.

"Azərbaycanfilm" kinostudiyasının Teatr Studiyasına rəhbərlik edirdi. Burada neçə-neçə istedadlı gənc aktyor sənət məktəbi keçmişdi.

Aktrisanı yaxından tanıyanlar deyirlər ki, Leyla Bədirbəylinin zahiri qədər, daxili də gözəl olub. Həssaslığı, səmimiliyi, qəlbinin təmizliyi zahiri gözəlliyini tamamlayıb. "Azərbaycan gözəli" titulunu da ona bu gözəlliyini vəsf edərək vermişdilər.

Səhnədən ayrılandan sonra öz aləminə qapılıb, cəmiyyətdən uzaq düşmüşdü. Yalnız 1999-cu il yanvarın 1-də ulu öndər Heydər Əliyev ona "İstiqlal" ordenini təqdim edərkən evdən çıxmışdı. Elə həmin ilin noyabr ayının 23-də 79 yaşında dünyasını dəyişən gözəllik əfsanəsi Fəxri xiyabanda dəfn edildi.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***